**A Z Ə R B A Y C A N  R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

**№** 9                                                                                   **"**14**"** yanvar **2022-ci il**

**Binəqədi rayonunda 20 Yanvar faciəsinin otuz ikinci ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında**

20 Yanvar faciəsinin otuz ikinci ildönümünün qeyd edilməsi və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22 və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. "Binəqədi rayonunda 20 Yanvar faciəsinin otuz ikinci ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).
2. Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri və müvafiq qurumların rəhbərləri Tədbirlər Planında nəzərdə tutulmuş məsələlərin icrası üçün təşkilati hazırlıq işlərini həyata keçirsinlər və icrasını təmin etsinlər.
3. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanovaya həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**                **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının
"14" yanvar 2022-ci il tarixli
9 saylı Sərəncamı ilə təsdiq edilmişdir

**20 Yanvar faciəsinin otuz ikinci ildönümünün keçirilməsi ilə bağlı**

## TƏDBİRLƏR PLANI

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Qanlı Yanvar faciəsinin mahiyyətini əks etdirən onlayn konfransın təşkil edilməsi | Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı (tövsiyə edilsin), Rayon Gənclər və İdman İdarəsi | S.Süleymanova<br>N.Allahverdiyev<br>N.Tarverdiyev | yanvar 2022 |
| 2. | Biləcəri qəsəbəsində yerləşən 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış "Güllə Yağışı" abidəsinin yerləşdiyi parkın ərazisində təmizlik və abadlıq işlərinin aparılması | Rayon İcra Hakimiyyəti, RİH başçısının Biləcəri QİƏD üzrə nümayəndəliyi, Biləcəri Bələdiyyəsi (tövsiyə olunur) | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahagir-zadə<br>N.Məmmədov | 15-20 yanvar 2022 |
| 3. | 20 Yanvar faciəsində şəhid və əlil olmuş şəxslərin ailələrinin humanitar yardımla təmin edilməsi | Rayon İcra Hakimiyyəti, Bələdiyyələr (tövsiyə olunur), "20 Yanvar" Cəmiyyətinin rayon şöbəsi | S.Süleymanova<br>N.Allahverdiyev<br>M.İsmayılov | 18 yanvar 2022 |
| 4. | 20 Yanvar faciəsinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədilə internet şəbəkələrdə faciə barədə materialların verilməsi | Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı (tövsiyə olunur), rayon Gənclər və İdman İdarəsi | S.Süleymanova<br>N.Allahverdiyev<br>N.Tarverdiyev | yanvar 2022 |
| 5. | 20 Yanvar faciəsinin otuz ikinci ildönümünə həsr olunmuş təhsil, məktəbəqədər və mədəniyyət müəssisələrində tədbirlərin keçirilməsi | Rayon İcra Hakimiyyəti, Rayon Gənclər və İdman İdarəsi, 6 nömrəli UGİM İdarəsi, 6 nömrəli UGİM Təhsil müəssisələri, Məktəbəqədər təhsil müəssisələri, Mədəniyyət müəssisələri | S.Süleymanova<br>N.Allahverdiyev<br>N.Tarverdiyev | yanvar 2022 |

| | | | | |
|---|---|---|---|---|
| 6. | Biləcəri qəsəbəsində 20 Yanvar Şəhidlərinin xatirəsinə ucaldılmış “Güllə Yağışı” abidəsinə əklilqoyma mərasiminin keçirilməsi | Rayon İcra Hakimiyyəti | S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Cahagir-zadə<br>N.Tarverdiyev | 19 yanvar 2022 |
| 7. | 20 Yanvar faciəsinin otuz ikinci ildönümü ilə bağlı keçirilən tədbirlərin kütləvi informasiya vasitələrində işıqlandırılmasının təmin edilməsi | Rayon İcra Hakimiyyəti | S.Süleymanova<br>N.Allahverdiyev | yanvar 2022 |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** — **Sevinc Süleymanova**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** — **Nicat Allahverdiyev**